# Giriş

## Narkotiklər nədir?

Texniki baxımdan bu kimyəvi elementlərdir hansılar ki, insan orqanizminin və beyninin normal fəaliyyətinə təsir göstərir. Bütün narkotikləri qanunsuz saymaq olmaz. Məsələn kofein, nikotin və alkoqol kimi narkotiklərə texniki olaraq icazə verilir, lakin bunlar barəsində bu cür yanaşmalar qəbul olunmur. Həkim tərəfindən təyin olunan dərmanları, yaxud apteklərdə reseptsiz verilən preparatları əsasən icazəli narkotik vasitələrə aid edirlər, lakin bunların istifadəsində sui-istifadə hallarına rast gəlinə bilər.

Qanunsuz narkotiklər silsiləsinə insan orqanizminə ziyan vuran narkotikləri aid etmək olar. Bu səbəbdən dünya ölkələri birgə olaraq narkotiklərin qanunsuz dövriyyəsinə və onların istifadəsinə nəzarət etmək qərarına gəliblər. Bu nəzarət BMT-nin müvafiq konvensiyalarında öz əksini tapmışdır.

Sadalanan bütün növ narkotiklər qanunsuz narkotiklər siyahısına aiddir. Bu o deməkdir ki, qeyd olunan narkotiklərin saxlanılması, istifadəsi və satışı qanuna ziddir.

Adətən narkotiklərin bir sıra adları var və həmin adlar öz əksini tapmışdır. Buna rəğmən qeyd olunan adlar bununla kifayətlənmir. Ola bilsin ki, başqa ölkələrdə digər adlarda mövcud olsun. Adların dəyişdirilməsinə baxmayaraq, belə narkotik vasitələrin təsiri dəyişilməz olaraq qalır.

Bütün qanunsuz narkotiklər təcili olaraq öz fiziki təsirini göstərir və bu barədə ətraflı olaraq kitabçanı oxuduqdan sonra məlumat əldə edə bilərsiniz. Bununla bərbər qanunsuz narkotiklərin istifadəsi əsasən gənclərin psixi və emosional inkişafını ciddi şəkildə poza bilər.

Baxmayaraq ki, kitabçada narkotiklər ayrılıqda təsvir olunur, təcrübədə isə onların birgə istifadəsi tez-tez müşahidə olunur. Narkotiklərin birgə istifadəsi istifadəçilərin orqanizminə və psixikasına ağır təsir göstərə bilər.

Sonda qeyd etmək lazımdır ki, narkotiklərin sui-istifadəsi istifadəçilərin vəziyyəti düzgün qiymətləndirməsinə mane olur, bu səbəbdən narkoistifdəçilər riskli qərarların çıxarılmasına daha çox meylli olurlar.

Misal üçün bir çox hallarda narkoistifadəçilər hepatit, QİÇS və digər yolxucu xəstəliklərə düçar olurlar.

# Heroin

**Bu nədir?** Heroin təsirinə və asılılıq yaratma qüvvəsinə görə ən güclü narkotik vasitə hesab edilir. Təmiz heroin ağrəngli toz halında olan narkotikdir. “Küçə” heroini isə müxtəlif maddələrin qatılması nəticəsində qəhvəyi rəngə bənzər olur. Onun istifadəsi adətən damardaxili, bundan əlavə nəfəs, çəkmə və yaxud xüsusi avadanlıq (inqalyator) yolu ilə bədənə daxil olur.

**Heroinin istifadəsi hansı ağır nəticələrdən ibarətdir?**

Qısa müddətli istifadə zamanı bəbəyin daralması, ürək bulanması, yuxululuq, hissləri cilovlamamaq kimi simptomlarla müşahidə olunur. Heroin tez bir zamanda adətkarlıq, fiziki və psixoloji asılılıq yaradır. Daimi istifadə zamanı heroinə meylilik yaranır, bu isə o anlama gəlir ki, istifadəçi istənilən effekti almaq üçün narkotikin həcmini durmadan artırır.

# LSD

► **Bu nədir?** LSD özündə yarımsintetik lizerqin turşusundan alınan kimyəvi maddədir. Bu turşu əsasən jımıxın və digər zülalların üzərində bitən parazit göbələklərdən əldə olunur. Adətən küçədə onun satışı kağızın üzərinə maye şəkilində vurulmuş xırda dörd bucaq formasında olur. bundan əlavə o həb, kapsul bəzən isə maye kimi satışda olur.

► **Onun istifadəçilərə təsiri**

LSD-nin qəbulu düşünmə istifadəsi nəticəsində qəbul hisslərinin pozulması və halyusinasiya ilə müşahidə olunur. İstifadəçidə zaman və yer, rəng və səs hissləriin dəyişdirilməsi kimi anomal hadisələr daha çox olur. LSD-nin qəbul zamanı istifadəçini ölüm, dəli olmaq və vəziyyətdən çıxış yolu tapmamaq kimi qorxunc hisslər daim onu izləyir.

# Metamfetamin

► **Bu nədir?**

Metamfetamin amfetamin stimulyatorlar adı ilə məşhur olan maddələr qrupuna aiddir. Adətən gizli laboratoriyalarda istehsal olunan sintetik narkotikdir. Metamfetamin toz, həb və kristal formasında olur. Onun istifadəsi Peroral yaxud nəfəs, həmçinin çəkmə və damardaxili inyeksiya yolu ilə bədənə qəbul edilir.

► **Metamfetaminin istifadəsi hansı ağır nəticələrdən ibarətdir?**

Qısa müddətli istifadə zamanı iştahın azalması, nəfəsin və ürək döyüntüsünün tezliyi, arterial təzyiq və hərarətin qalxması müşahidə olunur, kəskin tərlətməyə gətirib çıxarır. Böyük dozanın qəbulu qıcolma və nəfəsin dayanması nəticəsində ölümlə nəticələnə bilər. Bundan əlavə insult və ürək çatışmazlığı kimi təhlükəli xəstəliklərə səbəb ola bilər.

► **Riskin digər növləri**

Metamfetaminin istifadəsi zorakılıq və aqressiyanın, həmçinin davranışlarda bir çox qəribəçiliklərə gətirib çıxarır.

## Kannabis

► **Bu nədir?**

Kannabisin tərkibi tütünə bənzər, qurudulmuş çətənə bitkisinin güllərindən və yarpaqlarından ibarətdir. Əsasən yaşıl və qəhvəyi rəngdə olur.

► **Onun istifadəsi**

Kannabisin sadə istifadəsi çəkmə yolu ilə olur. Həmçinin qətranı, kannabis yağını peroral və qaynadılması üsulu ilə istifadə edirlər.

► **Kannabisin istifadəsi hansı ağır nəticələrdən ibarətdir?**

İlkin olaraq istifadəçilərində fiziki və intellektual hərəkətlərində, məntiqi təfəkkürün ifadə olunmasında çətinliklər yaranır. Kannabisin böyük dozalarda qəbulu istifadəçilərdə qallisunasiya (xəyala dalmaq) hallarını artırır. Daimi istifadəsi zamanı psixoloji asılılıq yaranır, hətta bütün növ fəaliyyətə maraqları azalır.

Bu yaxınlarda Birləşmiş Krallıqda aparılan tədqiqatlar zamanı kannabisin istifadəsi ilə şizofreniya xəstəliyinin əlaqəsinin aşkar ediblər.

► **Riskin digər növləri**

Kannabisin tüstüsündə yüksək qətranlı siqaretlərdən fərqli olaraq, qətranın miqdarı 50 faizdən çox təşkil edir, bu hal isə ölüm riskini daha da artırır, həmçinin ağ ciyər xərçənginin və digər ölümcül xəstəliklərin yayılmasını sürətləndirir.

## Kokain

► **Bu nədir?**

Kokain özündə xırda dənli ağ və ondan biraz tünd rəngdə toz halında yüksək təsirə malik olan narkotik vasitə sayılır. Kokain koka bitkisinin yarpaqlarından istehsal olunur. Küçə satışında həcminin çoxaldılması məqsədi ilə kokainin tərkibinə bir sıra maddələr qarışdırılır.

► **Onun istifadəsi**

Adətən kokain nəfəs və damardaxili, "krek" isə kannabis kimi çəkmə yolu ilə bədənə qəbul olunur.

► **Kokain istifadəsi hansı ağır nəticələrdən ibarətdir?**

Kokain təsiri altında olan insan qəribə hərəkətlər nümayiş etməklə yanaşı, bəzən zorakılıq hallarına da yol verirlər. Kokain dozirovkasının artıq düşməsi nəticəsində qıcolmalar, insult, beyninə qan sızmalar və ürək dayanmaları kimi hallara rast gəlinir.

► **Riskin digər növləri**

Kokain ilə alkoqolun birgə istifadəsi təhlükəlidir və ani ölmün ehtimalını daha da artırır.

**802 qaynar xətt**

**ƏZİZ DOST, ƏN DOĞRU SEÇİM NARKOTİKLƏR HAQQINDA HƏQİQƏTİ ÖYRƏNMƏK VƏ HEÇ BİR HALDA ONDAN İSTİFADƏ ETMƏMƏKDİR!**

AZƏRBAYCAN RESPUBLİKASI
NARKOMANLIĞA VƏ NARKOTİK VASİTƏLƏRİN
QANUNSUZ DÖVRİYYƏSİNƏ QARŞI MÜBARİZƏ ÜZRƏ
DÖVLƏT KOMİSSİYASI

# NARKOTİKLƏR HAQQINDA HƏQİQƏTİ BİLİN

Narkotiklərin hədəfinə çevrilməmək naminə **SAĞLAM HƏYAT** tərzi seçin!!!



www.nmdk.gov.az